

Azərbaycan dünyaya
günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

№ 05 (558) | 23 fevral 2018-ci il | Qəzet 1937-ci ildən çıxır | Qiyməti 40 qəpik


# Yeni hədəflərə doğru

## *Lerik Rayon İcra Hakimiyyəti başçısının 2017-ci ilin sosial-iqtisadi yekunları barədə hesabatına həsr olunmuş Şuranın geniş iclası keçirilmişdir*

***Şura iclasında Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Habil Əzənmədov, rayon icra hakimiyyəti başçısı aparatının məsul işçiləri, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, ərazi icra nümayəndələri, bələdiyyə sədrləri, ağsaqqallar, gənclər, ictimaiyyətin, qeyri-hökumət təşkilatlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər.***



Öncə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək abidə önünə gül-çiçək dəstələri qoydular.

Lerik rayon Mədəniyyət Mərkəzində keçirilən hesabat yığıncağında Lerik Rayon İcra Hakimiyyətinin başçısı **Rövşən Bağırov** 2017-ci ildə Lerik rayonunda görülmüş işlər və qarşıda duran vəzifələr barədə geniş məruzə etdi. Bildirdi ki, 2017-ci il dövlətimizin bütün sahələrdə əldə etdiyi mühüm nailiyyətlərlə tarixə düşdü. Son illərdə dayanıqlı inkişafa nail olan Azərbaycan Respublikasının iqtisadi uğurları artıq bütün dünyada birmənalı şəkildə qəbul edilir. İstər ictimai-siyasi, istər sosial-iqtisadi və eləcə də digər sahələrdə əldə edilən dinamika respublikamızın inkişafının davamlı olduğunu təsdiq edir.

Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında və regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının 4 illiyi ilə bağlı keçirilən konfransda dövlətimizin başçısı çıxış edərək Azərbaycanda makroiqtisadi və maliyyə sabitliyinin qorunması ilə bağlı mühüm tədbirlər görüldüyünü, yeni qlobal iqtisadi reallıqlara uyğun həyata keçirilən davamlı tədbirlər nəticəsində makroiqtisadi dayanıqlığın əsaslarının yaradıldığını, valyuta ehtiyatlarına təzyiqin azaldığını, milli valyutanın xarici dəyərinin sabitləşdiyini və inflyasiya gözləntilərinin səngidiyini bildirdi.

Ölkəmizdə həyata keçirilən islahatlar Davos Ümumdünya İqtisadi Forumunun 2017-ci ildə rəqabət qabiliyyətlilik indeksi ilə bağlı hesabatında Azərbaycan iki pillə irəliləyərək dünya ölkələri arasında 35-ci yerə layiq görülüb.

Düşünülmüş neft-qaz strategiyasının həyata keçirilməsi nəticəsində respublikamızda işsizliyin 5%, yoxsulluğun isə 5,4% təşkil edib, qeyri-neft sektorunun 2,5%, bu göstəricinin sənaye sahəsinin qeyri-neft sektorunda 3,6%, kənd təsərrüfatında 4,1% artıb. Bu, həm də onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi məsələsi öz həllini uğurla tapır.

Dövlətimizin başçısı proqram xarakterli nitqində demişdir: "Sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir. Bu, həqiqətdir və yaxın tarixin nəticələri, bölgəmizdə yaşanan böhranlı vəziyyət bunu təsdiqləyir. Azərbaycan isə təhlükəsizlik, əmin-amanlıq, sabitlik şəraitində öz yolu ilə uğurla gedir. Bu gün inkişaf parametrlərinə və vətəndaş həmrəyliyinə görə Azərbaycan dünyada nümunəvi ölkələrdən biridir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 10 yanvar 2018-ci il tarixli Sərəncamı ilə 2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi ölkə rəhbərinin dövlətçiliyə, dövlət atributlarına, dövlətçilik ənənələrinə sədaqətinin daha bir bariz nümunəsidir.

Cənab Prezidentin rəhbərliyi ilə son illərdə respublikada həyata keçirilən iqtisadi islahatlar Lerik rayonunun sosial-iqtisadi inkişafında çox böyük irəliləyişlərə səbəb olmuş, istehsal və əhali gəlirləri artmışdır.

İlkin hesablamalara görə 2017-ci ildə rayonda əsas sahələr üzrə məhsul istehsalının həcmi xeyli artmışdır. Bu müsbət nəticələr tikinti-abadlıq və əsasən də kənd təsərrüfatı sahələrində görünməkdədir.

Vətəndaşlarla aparılmış maarifləndirmə və izahat işləri nəticəsində əkin sahələrinin dövriyyəsi xeyli artmışdır. Taxıl, kartof, tərəvəz sahələrindən, meyvə bağlarından bol məhsul əldə edilmişdir.

Ənənəvi kənd təsərrüfatı sahələrinin bərpası sahəsində rayonumuzda da işlər aparılır. Belə ki, keçən il 25 hektar sahədə tütün, ilk dəfə olaraq 50 hektar sahədə 60 mindən artıq fındıq tingləri əkilmişdir. Qarşıdakı ildə tütün sahələrinin, fındıq bağlarının genişləndirilməsi nəzərdə tutulmuşdur.

Hesabat ilində heyvandarlıq sahəsində də uğurlara imza atılmışdır. Heyvanların baş sayı əvvəlki illərə nisbətən azalsa da cins tərkibinin yaxşılaşdırılması ilə bağlı mühüm işlər həyata keçirilmişdir. Rayonun Blaband və Rəzgov kəndlərində yeni heyvandarlıq fermaları inşa edilmişdir. Rayona 150-ə yaxın iri buynuzlu cins heyvan gətirilmişdir. Süni mayalanma yolu ilə heyvanların cins tərkibinin yaxşılaşdırılması istiqamətində də işlər davam etdirilir.

Cari ildə Lerik "Broyler" quşçuluq müəssisəsi tam gücü ilə işləməmişdir. Quşçuluq müəssisəsində 2017-ci ildə 1 milyon 10 min baş quş yetişdirərək 10,04 sentner quş əti istehsal edilib satılmışdır.

2017-ci ildə 52 milyon 435 min manatlıq bitkiçilik və heyvandarlıq məhsullar istehsal edilmişdir ki, bu da 2016-cı illə müqayisədə 5 milyon 598 min manat və ya 12% çoxdur.

Veri-Əliabadı və Piran kəndində iş adamları tərəfindən 2 hektar torpaq sahəsində, ümumi sahəsi 15704 m2 olan 44 istixana tikilmişdir. 15-20 nəfər kənd sakininin işlədiyi istixanaların beşində qərənfil, digərlərində isə pomidor və xiyar becərilir.



Divağac kəndində iş adamı Əliyev Fizuli Şahverən oğlu tərəfindən keçmiş quşçuluq fermalarının özəlləşdirilmiş ərazisində tikinti altı sahəsi 420 m2, tutumu 200 ton, ümumi smeta dəyəri 370 min manat həcmində olan soyuducu anbarın tikintisinə başlanılmışdır. Artıq tikintidə 212 min manatlıq tikinti işləri həyata keçirilmişdir.

"52 nömrəli Yol İstismar" Məhdud Məsuliyyətli Cəmiyyət tərəfindən hesabat ilində Lənkəran-Lerik avtomobil yolunun dağılmış hissələrinə asfalt döşənmiş, istinad divarları tikilmiş, sürüşmələrin qarşısı alınmış, yol bərpa edilmişdir. Ümumilikdə 2017-ci ildə cəmiyyət tərəfindən keçən ilin müvafiq dövrünə nisbətən 138,7 min manat çox, 746 min manatlıq iş görülmüşdür.

Son illər ölkə rəhbərinin yol infrastrukturunun yenilənməsi ilə bağlı verdiyi sərəncamlara uyğun olaraq 26,5 km-lik Lerik-Qosmalıan-Kəlvəz avtomobil yolu inşa edilmiş, 36 km-lik Noda-Şingədulan-Xanəgah avtomobil yolunun tikintisi davam etdirilir.

2017-ci ildə Lerik şəhərində 976 min manat dəyərində tikinti-abadlıq işləri həyata keçirilmişdir. İstinad divarı hörülmüş, divarlar ağlay daşlarla üzlənmiş, səki və meydançalara tamet döşənmiş, beton işləri görülmüş, beton səki daşları düzülmüş, suvaq işləri aparılmış, küçə, meydan və parklarda yeni işıqlandırma dirəkləri quraşdırılmış, şəhərdaxili küçələrə asfalt döşənmiş, kommunal binaların bloklarında təmir işləri həyata keçirilmişdir.

Rayon icra hakimiyyətində respublikanın ali məktəblərinə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş keçirilmiş, yüksək bal toplayanlara qiymətli hədiyyələr verilmişdir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 2017-ci ildən başlayaraq 2021-ci ilədək hər ildə orta hesabla 80 hektar, cəmi 400 hektar yeni meyvə bağlarının salınması planlaşdırılmışdır. Rayon meşə mühafizəsi və bərpası müəssisəsinin kollektivi hesabat ilinin yaz və payız mövsümündə 88 hektar sahədə qoz cinsindən olan bağ salmışdır.

2017-cidə ölkə başçısının qayğı və diqqəti ilə artıq rayonun 48 yaşayış məntəqəsi tam qazlaşdırılmış, 4372 əhali və 57 qeyri-əhali abonenti qazla təmin olunmuşdur. Hesabat ilində Milli Məclisin deputatının iştirakı ilə Mastail, Əvilə və Murya kəndlərinə mavi qazın verilməsi mərasimləri keçirilmişdir. Hal-hazırda Durğan kəndinin qazlaşdırılması ilə bağlı işlər davam etdirilir. Evlərin sayı 100-dən yuxarı olan yaşayış məntəqələrinin qarşıdakı illərdə qazlaşdırılması ilə bağlı tələb olunan müvafiq sənədlər hazırlanaraq Prezident Administrasiyasına, " Azəriqaz" İB-nə təqdim edilmişdir.

Cənab Prezidentin Azərbaycanda növbədənkənar Prezident seçkilərinin keçirilməsi haqqında Sərəncam imzaladığını və cari ildə aprelin 11-də keçiriləcək Prezident seçkilərində Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyevin namizədliyi partiyanın 8 fevral 2018-ci il tarixdə keçirilən Qurultayında yekdilliklə irəli sürülmüşdür. Bu təklif bütün xalqımızın ürəyincə olan təklifdir və leriklilər də cənab Prezidentin siyasətini dəstəkləyirlər.

Məruzə ətrafında rayon maliyyə idarəsinin müdiri **Elman Abbasov**, kənd təsərrüfatı idarəsinin müdiri **Mahmud Zahidov**, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Lerik rayon şöbəsinin sədri **Veysəl Məlikov**, sahibkar Ü**midvar Kəlbiyev,** ağsaqqal **Vahid Cəbrayılov** çıxış edərək 2017-ci ildə rayonda ayrı-ayrı sahələr üzrə görülən işlərdən, mövcud problemlərdən və qarşıda duran vəzifələrdən danışdılar.

Lerik peşə məktəbinin müəllimi Rəsmiyyə Ağayeva çıxış edərək xalçaçılığın inkişafında səmərəli fəaliyyətinin qiymətləndirilərək "Tərəqqi" medalı ilə təltif edildiyinə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlığını bildirdi.

Şura iclasında Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri **Habil Əzənmədov** çıxış edərək 2017-ci ildə cənab Prezidentin düşünülmüş məntiqli, uğurlu siyasəti nəticəsində ölkəmizdə siyasi sabitliyin və təhlükəsizliyin qorunduğunu, kənd təsərrüfatının dinamik inkişaf etdiyini vurğulayaraq ümumdaxili məhsulun, qeyri neft sektorunun, valyuta ehtiyatlarımızın artdığını qeyd etdi. Keçirilən zona müşavirələrində, Nazirlər Kabinetinin iclasında və Dövlət Proqramının icrasının 4 illiyi ilə bağlı keçirilən konfransda cənab Prezident tərəfindən ölkə iqtisadiyyatının əsas sahələrindən sayılan kənd təsərrüfatının inkişafı ilə bağlı konkret tapşırıq və tövsiyələrini verildiyini diqqətə çatdırdı, istehsalın artırılması ilə bağlı fermerlərə lazımı dövlət dəstəyinin göstərilməsi istiqamətində müvafiq tapşırıqların verildiyini bildirdi. Rayonda görülən işləri qeyd etdi, qarşıda duran vəzifələrlə bağlı tövsiyələrini çatdırdı.

Şura iclasıda müzakirə olunan məsələ ilə bağlı müvafiq qərar, yığıncaq iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələri adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edildi.

# Lerik Rayon İcra Hakimiyyəti başçısının "Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair Lerik Rayon İcra Hakimiyyətinin tədbirlər planı"nın təsdiq edilməsi haqqında SƏRƏNCAMI

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.6-cı, 4.1.2-ci və 4.1.22-ci bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2018-ci il 6 fevral tarixli 22 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair tədbirlər planı"nın icrasını təmin etmək məqsədi ilə

**QƏRARA ALIRAM:**

1. "Xocalı soyqırımının iyirmi altıncı ildönümünün keçirilməsinə dair Lerik Rayon İcra Hakimiyyətinin tədbirlər planı" təsdiq edilsin.

2. Lerik Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələrinə, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatların rəhbərlərinə tapşırılsın ki, bu sərəncamın 1-ci bəndi ilə təsdiq edilən tədbirlər planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsinlər.

3. Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə (Zamiq Əhədov) tapşırılsın ki, bu sərəncamın surətinin Lerik Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərinə, rayonda fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlara göndərilməsini təmin etsin.

4. Sərəncamın icrasına nəzarət Lerik Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Cəlil Baxşıyevə tapşırılsın.

***Rövşən Bağırov,***
***Lerik Rayon İcra Hakimiyyəti başçısı***

*9 fevral 2018-ci il*

# Şuranın növbəti iclası keçirildi




Lerik Rayon İcra Hakimiyyətinin inzibati binasında rayon icra hakimiyyəti başçısı yanında rayon rəhbərliyinin, hüquq-mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə, təşkilat rəhbərlərinin, ərazi icra nümayəndələri və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Şuranın növbəti iclası keçirildi.

Rayon icra hakimiyyəti başçısı **Rövşən Bağırov** tədbir iştirakçılarını salamlayaraq Şura iclasının gündəliyində duran məsələlər barədə məlumat verdi.

İclasda "Günəşli, Çayrud və Siyov kənd uşaq bağçalarında məktəbəqədər yaşlı uşaqların tərbiyəsi və ümumi təhsilə hazırlanmasının vəziyyəti haqqında" rayon icra hakimiyyəti başçısının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri **Arzu Vəliməmmədovanın** arayışı dinlənildi. Rayonda fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin, o cümlədən yoxlama aparılmış Günəşli, Çayrud və Siyov kənd uşaq bağçalarının fəaliyyətinin müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkil edilməsi məsələləri geniş müzakirə olundu.

Şura iclasının müzakirə olunan məsələ ilə bağlı qəbul edilmiş qərarı ilə aidiyyəti vəzifəli şəxslərə uşaq bağçalarının fəaliyyətində yol verilmiş nöqsan və çatışmazlıqların qısa müddətdə aradan qaldırılması, uşaq bağçalarının fəaliyyətinin müvafiq normativ hüquqi aktların tələblərinə uyğun təşkilinə nəzarətin təmin edilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi və ərzaqla təchizatı istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi, məktəbəqədər təhsil müəssisələrinə metodiki nəzarətin gücləndirilməsi ilə dövlət məktəbəqədər təhsil standartının tələblərinə uyğun olaraq hazırlanmış proqram (kurikulum) əsasında məşğələlərin səviyyəsinin yüksəldilməsi üçün zəruri tədbirlərin həyata keçirilməsi tövsiyə olundu, nöqsanlara yol vermiş vəzifəli şəxslər barədə qanunvericilikdə nəzərdə tutulan tədbirlərin görülməsi məqsədəmüvafiq hesab edildi.

Rayon icra hakimiyyətinin başçısı Şura iclasının gündəliyinə daxil edilmiş məsələ ilə bağlı görülən işlər və qarşıya qoyulmuş vəzifələrin icrasını təmin etmək məqsədi ilə aidiyyəti idarə və təşkilat rəhbərlərinə müvafiq tapşırıq və tövsiyələrini verdi.

Müzakirə olunan məsələlərlə bağlı Şura iclasında müvafiq qərar qəbul edildi.

# Livədirqə kəndində vətəndaşlarla səyyar görüş-qəbul

Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov rayonun hüquq mühafizə orqanlarının, əlaqədar idarə və təşkilat rəhbərlərinin iştirakı ilə Livədirqə kəndinə vətəndaşlarla səyyar görüş-qəbul keçirdi.

Rayon icra hakimiyyəti başçısı **Rövşən Bağırov** görüş iştirakçılarını salamlayaraq bildirdi ki, cənab Prezidentin tapşırığına əsasən yerlərdə əhali ilə keçirilən səyyar görüş-qəbullar qrafikinə uyğun olaraq bu gün növbəti dəfə sizinlə görüşürük.

Çıxışında rayon icra hakimiyyətinin başçısı son illərdə ölkəmizin sosial-iqtisadi inkişafı naminə dövlət səviyyəsində həyata keçirilən tədbirlərdən danışaraq cənab Prezidentin regionlara göstərdiyi diqqətdən bəhs etdi. Bildirdi ki, bu günə kimi regionların inkişaf etdirilməsi üçün cənab Prezident tərəfindən qəbul edilmiş Dövlət Proqramının icrası uğurla həyata keçirilmiş, üçüncü Dövlət Proqramının icrası ilə bağlı işlər davam etdirilir.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı" barədə söhbət açaraq Dövlət Proqramının icrası kooperasiya hərəkatının geniş yayılmasına, kənd təsərrüfatının inkişafı istiqamətində qarşıya qoyulmuş məqsədlərə nail olunmasına imkan yaradacağını qeyd etdi.

Rayon icra hakimiyyətinin başçısı Dövlət Proqramlarının uğurla icra edilməsi nəticəsində ölkəmizin hər bir bölgəsi kimi rayonumuzun da simasının daim dəyişərək müasirləşdiyini, əhalinin rifah halının daha da yaxşılaşdığını vurğuladı. Livədirqə kəndində tikilmiş yeni məktəb binası, Mastail kənd məktəbinin əsaslı təmir edilməsi, Mastail, Livədirqə və Murya kəndlərində yeni körpülərin tikilərək istifadəyə verilməsi, Mastail kəndində elektrik xətlərinin sip kabellərlə əvəzlənməsi, Əvilə kənd məktəbi üçün yeni binanın tikintisinə başlanılması, Nüsomurya kəndində veteranlar evinin tikintisi və ərazinin bütün kəndlərinə mavi qazın verilməsinin buna nümunə olduğunu diqqətə çatdırdı. Biz inanırıq ki, Azərbaycan qarşıdan gələn illərdə də Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edərək yüksək nailiyyətlər əldə edəcəkdir.



Səyyar görüş-qəbulda çıxış edən vətəndaşlardan Abbas Zaidov, Adil Rzayev, Qəhrəman Məmmədov, Qüdrət Babayev, İsa Bağırov, Güləxan Fərəcov, Mais Təmkin, Əlirza Kərimov, Məzahir Şahbazov çıxış edərək görülən işlərə görə minnətdarlıqlarını bildirdilər və kənddaxili və kəndlərarası avtomobil yollarının təmirinə, Livədirqə həkim məntəqəsi üçün yeni binanın tikilməsinə, elektrik, rabitə xətlərinin təmirinə, Nüsomurya və Qədiməkücə kəndlərindən Murya kəndinə əlaqəni təmin edən piyada körpüsünün, Əvilə kəndinə gedən yolda çayın üzərində yeni körpünün tikintisinə, Livədirqə kənd ümumi orta məktəbinin tam orta məktəbə çevrilməsinə və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı vətəndaşlar tərəfindən verilmiş təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə görüləcək tədbirləri qeyd etdi, aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verdi.

*Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi qarşısında*

# Dövlətin mühüm atributlarından biri - dövlət dili

1918-ci il mayın 28-də Tiflisdə Azərbaycan Milli Şurası Azərbaycanın dövlət müstəqilliyi haqqında "İstiqlal bəyannaməsi" qəbul etdi. Azərbaycan dövlətçiliyi tarixində ilk Konstitusiya aktı - İstiqlal bəyannaməsinin qəbulu ilə Azərbaycan dövlətçiliyi Xalq Cümhuriyyəti formasında elan olundu. Bu hüquqi və siyasi sənəddə müstəqil Azərbaycan dövlətinin yarandığı bəyan edilmiş, onun hakimiyyətinin şamil olunduğu ərazinin hüdudları müəyyənləşdirilmiş, həmçinin dövlətin əsas fəaliyyət prinsipləri öz əskini tapmışdır. Bu tarixi sənəddə dövlətə məxsus atributların, hakimiyyətin bölünməsi kimi prinsiplərin dövlət fəaliyyətinin əsası kimi bəyan edilməsi Azərbaycan xalqının suveren, demokratik, hüquqi dövlət yaratmaq əzmində olduğunu bütün bəşəriyyətə bəyan etdi.

Başqa sahələrdə olduğu kimi xalq maarifi sahəsində də ciddi nailiyyətlər qazanıldı. Orta məktəblərin təxminən yarısı milliləşdirildi, məktəblərdə rus tarixi əvəzinə ümumtürk tarixi tədris olunmağa başladı, bütün məktəblərdə Azərbaycan dilinin tədrisi məcburi hesab olundu. Dərslər noyabrın 15-də başlandı. Kənd Təsərrüfatı İnstitutunun yaradılması haqqında qanun qəbul olundu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dil və tədrislə bağlı 6 qərar qəbul edilmişdi.

Müstəqil dövlətin mühüm atributlarından biri olan dövlət dili məsələsi yeni yaranmış Xalq Cümhuriyyəti Hökumətinin diqqət mərkəzində idi. Hökumət 1918-ci il 27 iyun tarixli qərarı ilə o zaman türk dili adlanan Azərbaycan dilini dövlət dili elan etdi. Həmin qərar Gülüstan və Türkmənçay müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsindən sonra ana dilinin dövlət dili kimi işlənməsinə aid ilk sənəddir. Dövlət dili haqqında imzalanmış bu qərar Hökumət Gəncəyə köçdükdən sonra qəbul etdiyi ilk qərarlardan biridir.

Qəbul olunmuş qərarın adından da göründüyü kimi hökumət o vaxtlar türk dili adlanan Azərbaycan dilini dövlət dili kimi qəbul edərək, ölkənin məhkəmə, daxili işlər idarələrində və digər sahələrdə çalışanların dövlət dilini bilmələrinə qədər olan müddətdə hökumət müəssisələrində rus dilinin işlənməsinə də icazə vermişdir. Azərbaycan dilinin, sözün əsl mənasında dövlət dili kimi işlənməsi təcrübəsi geniş şəkildə ilk Azərbaycan Parlamentin iclaslarından birində ayrıca müzakirə olunmuş və bu xüsusda qərar qəbul edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti öz dil siyasətini həyata keçirmək üçün təhsilin çox mühüm sahə olduğunu ön plana çəkdi, 28 avqust 1918-ci ildə hökumət ibtidai və orta təhsil müəssisələrində ana dilində aparılması haqqında qərar verdi. Həmin qərarda deyilirdi:

1. Bütün ibtidai təhsil müəssisələrində tədris ana dilində aparılır:

2. Dövlət dili icbari qaydada tədris olunur.

Cümhuriyyətin dil siyasəti bununla da yekunlaşmırdı. Yeni tətbiq olunan dildən artıq bütün dairələrdə rəsmi şəkildə istifadə olunurdu. Aparılan bu islahatların məntiqi davamı kimi Azərbaycan Xalq Cümhuriyyətinin ilk hərbi naziri Səməd bəy Mehmandarov (rus artilleriyasının Allahı, general-polkovnik) 27 dekabr 1918-ci ildə ordunun dilinin Azərbaycan-türk dili olduğu barədə əmr verdi. Nazir orduda xidmət edən, lakin dövlət dilini bilməyən zabitlərə onu öyrənmək üçün bir ay müəyyənləşdirdi. Qərara aldı ki, həmin müddət ərzində heç olmasa hərbi əmrləri azərbaycanca (türkcə) verə bilməyən hərbi qulluqçulara ordu sıralarından xaric ediləcəklər.

Azərbaycanın, eləcə də qoca Şərqin tarixinə daxil olmuş ilk parlamentli respublika - Azərbaycan Xalq Cümhuriyyəti 23 ay müddətində dil barədə çox mühüm qərarların icrası üçün az iş görmədi. Xüsusilə qeyd etmək lazımdır ki, dövlətin dil haqqında qərarları hökumətin "Milli bayraq haqqında"kı 9 noyabr 1918-ci il tarixli qərarından altı ay əvvəl verilmişdi. Bu, Azərbaycan hökumətinin dövlət dili məsələsinə necə diqqət yetirdiyini aydın göstərir.

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin ilk yubileyi haqqında" Sərəncam vermiş, 2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir. Əsası və təməli əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin nümunəsində qoyulan böyük azərbaycançılıq ideyası öz tarixi, qanunauyğun varisini çağdaş, suveren, demokratik Azərbaycan Respublikasının timsalında tapmışdır.

***Qurban Ağayev,***



***N.Muradov adına Günəşli kənd tam orta məktəbinin direktoru***

# SHXÇDX-in yaranmasının 6-cı ildönümü





***Lerik Rayon İcra Hakimiyyətinin inzibati idarə binasında keçirilən tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon şöbəsinin şəxsi heyəti, rayonun hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilat rəhbərləri, gənclər, Qarabağ müharibəsi veteranları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.***

Tədbirdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yaranması tarixinə həsr olunmuş qısametrajlı filim nümayiş etdirildi.

Tədbiri giriş sözü ilə açan Lerik Rayon İcra hakimiyyətinin başçısı Rövşən Bağırov öncə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin bütün əməkdaşlarını xidmətin yaranmasının 6-cı ildönümü münasibəti ilə ürəkdən təbrik etdi və şöbənin hər bir əməkdaşına xidməti fəaliyyətində uğurlar arzuladı. Qeyd etdi ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradıldığı gündən gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, çağırışçıların həqiqi hərbi xidmətə yola salınması, ordumuzun vətənpərvər, sağlam gənclərlə təmin edilməsi istiqamətində Ali Baş Komandanın qarşıya qoyduğu vəzifələri layiqincə yerinə yetirir.

Son illər cənab Prezidentin ordu quruculuğuna, hərbçilərə və onların ailə üzvlərinə göstərdiyi diqqət, dövlətin müdafiə xərclərini artırması, ordumuzun ən müasir silah-sursatla təmin edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər bütün xalqımızda vətənpərvərlik hissini daha da artırmışdır. Bu gün işğaldan azad olunmuş Cocuq Mərcanlıya qayıdış, inşallah bütün Qarabağ torpaqlarına qayıdışın başlanğıcıdır.



Rayonumuz vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda 140-a yaxın şəhid vermişdir. Beş Milli Qəhrəmanımız, 80-dən çox Qarabağ əlilimiz vardır. Biz inanırıq ki, Ordumuz cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasət nəticəsində qısa zaman ərzində torpaqlarımızı işğaldan azad edəcəkdir.

Sonra Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Lerik rayon şöbəsinin rəisi, polkovnik **Arif Həsənov** xidmətin yaranmasının 6 illiyinə həsr edilmiş məruzə ilə çıxış etdi. Bildirdi ki, uzun illər Müdafiə Nazirliyinin tabeliyində hərbi komissarlıq kimi fəaliyyət göstərən bu qurum ölkənin ordu quruculuğunda, gənclərin orduya hazırlanması və vətənpərvərlik ruhunda tərbiyəsində mühüm rol oynamışdır. Son illər cənab Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən bütün sahələrdə aparılan islahatlar, dövlət orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi, idarəetmənin çevik mexanizmlər əsasında müasir tələblərə uyğun qurulması istiqamətində mühüm addımlar atılmış, qərarlar qəbul edilmişdir. Məhz, cənab Prezidentin 6 il öncə imzaladığı, 13 fevral 2012-ci il tarixli fərmanla respublika hərbi komissarlığı, şəhər və rayon hərbi komissarlıqları ləğv edilərək onların əsasında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti yaradılmışdır. Xidmət yarandıqdan sonra çağırış sisteminə diqqət artırılıb. Müvafiq qanunvericilik bazası təkmilləşdirilib. Eyni zamanda orta məktəblərdə hərbi dərslərin keyfiyyətinin yüksəldilməsi, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinin artırılması, ilkin hərbi biliklərə yiyələnməsi istiqamətində təhsil şöbəsi ilə işimizi birgə qurur, hərbiçilərlə gənclərin görüşlərinin keçirilməsini təmin edirik. Hər rübdə cənab Prezidentin sərəncamı ilə gənclərin orduya yola salınması təntənəli şəkildə, bayram əhval-ruhiyyəsində təşkil edilir.

Daha sonra tədbirdə Yeni Azərbaycan Partiyası Lerik Rayon təşkilatının aparat rəhbəri **Elxan Qənbərov**, Qarabağ Müharibəsi Əlilləri Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Lerik Rayon Şöbəsinin sədri **Veysəl Məlikov** çıxış edərək Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin əməkdaşlarını xidmətin yaranmasının 6-cı ildönümü münasibəti ilə təbrik etdilər, onlara uğurlar arzuladılar.

Tədbirin sonunda SHXÇDX rəisinin əmri ilə rayon şöbəsinin xidmətdə fərqlənən əməkdaşlarından Rasim Qənbərov, Səyyad Əmirova, Vizəzəmin kənd tam orta məktəbinin hərbi müəllimi İsrafil Rəhimova Fəxri Fərmanlar təqdim edildi. SHXÇDX rayon şöbəsinin əməkdaşları Pərviz Ağaxanlı və Səfa Nəsirova təşəkkür elan olundu.

# Haradasan, yaxşı adam?..

## Atanın adına layiq övlad

Dəyərli oxucu, yaxşı adam - Elşad Hacı oğlu Abdullayevi sizlərə təqdim etməzdən əvvəl, Həzrət Əlinin (ə.s.) müdrik kəlamlarında yaxşı adam barədə dediyi bu kəlamı xatırlatmaq istədim. Həzrət deyib: "Yaxşı adam o adam deyil ki, ona yaxşılıq edənə yaxşılıq edə. Yaxşı adam o adamdır ki, ona pislik edənə yaxşılıq edə və elədiyi yaxşılıq barədə düşünməyə". Məhz Çayrudun yetirməsi Elşad Abdullayev elədiyi yaxşılığı mənəvi borcu, sayırdı və elədiyi yaxşılıq barədə düşünmürdü də. Çünki onun kökü, soyu yaxşılıq, xeyirxahlıq, təmənnasız yardım üzərində qurulmuşdu və bilirdi ki, dünyada yaxşılıqdan, yaxşı əməldə başqa heç nə qalmır. Məhz insanı da yaşadan yaxşı söz, yaxşı əməl, yaxşı nam-nişandır...

Atası, rəhmətlik Hacı kişi elin sevimlisi idi. Onu hamıya sevdirən yaxşı insan olması, çətin məqamda hamının qayğısına qalması idi. Məsələn, o müharibə dövründə kolxoz sədri olanda tapşırmışdı ki, əsgər ailələrinə ən çox süd verən inəyi versinlər. Onun qorxusundan əsgər ailələrinə kim isə artıq bir söz deməzdi. Çayrud kəndində o vaxt üçün qeyri-adi görünən tikinti-quruculuq işləri aparmışdı. Taxıl biçini zamanı ən çox buğda verən sünbülləri yığdırıb, toxum üçün ayırırdı. Əmək gününə daha çox taxıl verib, ona görə də ərazidə heç kim aclıqdan əzab çəkməyib. Ev heyvanlarına xüsusi diqqət göstərərdi. Kolxozu vergidən azad etdirib, kənddə kirəmid sexi, hamam, 900 metrə qədər bina tikdirib, park saldırıb, çay kolları əkdirib, yol çəkib, bulaq gözü açdırıb. Kolxozun arxivini yaradıəb. Ən əsası isə kolxozda hamı elliklə bir məqsəd üçün çalışıb, ona görə də hamı çətin günlərə, aclıq dövrünə sinə gərib.

Adamlar indi də kolxoz sədri Hacı Abdullayevin çətin dövrün adamı, el-oba təəssübü çəkəb mərd kişi olmasından danışır, hörmətlə xatırlayırlar.

Elşad Abdullayev kəndin ağsaqqallarından, ağbirçəklərindən, zəhmət adamlarından atası Hacı kişi haqqında xatirələr çox eşitmişdi. Bu onu sabaha ruhlandırırdı.

O da atasının adına layiq oğul olmasına, onun yolunu davam etdirməsinə qərar vermişdi. Layiqli övlad oldu, vaxtilə atasının rəhəbərlik elədiyi təsərrüfata başçılıq etdi və...

## Təhsil illəri, yeni iş yerləri

Çayrud kəndi Lerikin ən iri, əhali çox yaşayan kəndidir. Burada elmə, təhsilə, mədəniyyətə, idmana maraq böyükdür, zəhməti çox sevirlər. Qonaqsevərliyi ilə də tanınır bu kənd.

Elşad müharibə qələbə ilə sona çatdıqdan üç il sonra - 1948-ci ildə dünyaya göz açdı. O, 1965-ci ildə Çayrud kənd orta məktəbini bitirmişdir. Elə həmin ildə Gəncə Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, baytar həkimi ixtisasına yiyələnmişdi. Atası Hacı kişi 4-cü sinfi bitirsə də 27 yaşında Çayrud K.Marks adına kolxoz idarə heyətinin sədri seçilmişdi, başçılıq elədiyi təsərrüfat SSRİ Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisinin müəkafatına layiq görülmüşdü. Lerik rayon Sovetinin deputatı və raykomun büro üzvü, üç kolxozun partiya təşkilatı katibi, müharibə iştirakçısı kimi ad çıxarmışdı, el-oba hörməti qazanmışdı. Bəs o?

Elşad gənc olmasına baxmayaraq yaşadığı həyatı, mühiti yaxşı dərk edir, ixtisasınını daim təkmilləşdirir, işdə özünü doğruldurdu. O, atasının yolu ilə getmək, ona bənzəmək istəyirdi. Heç ola bilməzdi ki, atası Hacı kişi aldığı dörd siniflik təhsili ilə yüksəkliyə qalxdığı halda, o bu zirvəyə çata bilməsin... Tanınmış şair-publisist Allahverdi Məmmədli "Şəfqət" qəzetində "İnsan ölmür" adlı oçerkində (1991) yazmışdı: "Aclıq vaxtı Astradan, Lənkərandan kiloynan qızıl gətirdilər onun qapısına. Deyirdi "mən Tanrının neməti - taxılı dəmirə dəyişə bilmərəm". Sonra da camaatı yığıb məsləhətləşirdi - necə eləyək ki, gələnlər naümid qayıtmasın. Sağ olsun el-oba da kömək əlini uzadırdı gəlib-gedənə".

Bax belə bir əqidəli, namuslu kişinin oğlu ondan geri qala bilməzdi. Elşad Hacı oğlu Fioletov adına qoyunçuluq sovxozunda təsərrüfatın inkişaf edib varlanması, camaatın firavan yaşaması üçün gücünü-qüvvəsini, bacarığını, bilik və təcrübəsini əsirgəmədi. O zaman rayonda qoyunçuluğun 30 faizi - 22,300 baş qoyun onun işlədiyi təsərrüfatın payına düşürdü. Sovxoza rəhbərlik elədiyi dövrdə rayonun 28 təsərrüfatı sırasında fioletovçular birinci üçlüyə daxil oldular. Çayrudlular həmişə gəlirlə işləyir, əmək haqqı artır, gün-güzəran yaxınlaşırdı. Elşad Abdullayev rayon partiya komitəsinin büro və plenum üzvü, rayon Sovetinin deputatı seçildi, respublika zona müşavirələrinin iştirakçısı oldu...

## Heç bir mükafat gözləmədən...

Elşad Abdullayev işlədiyi illər ərzində atasının yolu ilə getdi, başçılıq etdiyi sovxozu qabaqcıllar sırasından enməyə imkan vermədi, daim əhalisinin mənafeyini müdafiə etdi, şəffaflığı, halallığı, ədaləti, həqiqəti həmişə uca tutdu. Özü də hiss edirdi ki, kənd adamları, rayon rəhbərliyi, ictimaiyyəti arasında .hörmət və ehtiram qazanmışdır. Ürəyindən keçdi: "Ay ata, sənin yolunla getməyi arzulamışdım - çatdım. Sənin işlədiyin kimi işlədim. Xalqa xidmət etmək mənim üçün həmişə önəmli oldu. Vəzifəyə həris olmadım, yüksələndə başım gicəllənmədi, dağıntıya, əyintilərə yol vermədim, sözümün sahibi oldum. İndi rəhbərliyin tələbi başqadır. Qurulanı dağıtmaq asandır, yaratmaq isə çətin. Adına, adıma xələl gəlməsin deyə, tutduğum vəzifəni təhvil verməkdən başqa çarəm qalmır.

Məni düşündürən, bəzən də çaşdıran suallar çoxdur. Hamısından söz açmaq çətindir. Sənin dövründə el malına qıymaq olardımı?..

Elşad Abdullayev 1994-cü ildən 96-cı ilə kimi Çayrud kənd ərazi icra nümayəndəsi işlədi. Vəzifə borcunu yerinə yetirdi, el-oba ilə nəfəs aldı. Müstəqil dövlətin qüdrəti, nüfuzu artdıqca o da sevindi, günbəgün artan tərəqqi, inkişaf könlünü açdı... Sonrakı illərdə müxtəlif vəzifələrdə çalışdı, özünü daim sırada hiss etdi.

***Müdriklərdən biri deyib ki, günəş bütün dünyanın bağlarını meyvələrlə doldurur, amma kimdən bir təşəkkür gözləmir. Müdrik insan Elşad Abdullayev həmişə kimdənsə xüsusi göstəriş gözləmədən işləyib, mükafat və təşəkkür onu maraqlandırmayıb. El sevgisini, hörmət və ehtiramı ən böyük mükafat sayıb.***

***Elşad qardaş, sən sevin ki, əslinə, nəslinə layiq bir övlad oldun, təmiz adını həmişə qorudun, el-obanın şərəfini uca tutdun, milli və bəşəri dəyərləri qoruyan bir vətəndaş, alnıaçıq ziyalı, elədiyi yaxşılığı unudan xeyirxah bir insan, ağsaqqal, ailə başçısı kimi tanındın.***

Bundan önəmli nə ola bilər?

***İdris Şükürlü***

# Vəkil Zəkiyevin 65 illiyi qeyd olundu



Habil Nəciyev adına Noda kənd ümumi orta məktəbində təcrübəli ədəbiyyat müəllimi Vəkil Dadaş oğlu Zəkiyevin 65 illik yubileyi pedaqoji kollektivin, kənd ağsaqqallarının, ziyalıların, yaxınlarının iştirakı ilə qeyd olunmuşdur. Tədbirin aparıcısı Səlim Səfərov çıxış edərək Vəkil Zəkiyevin 44 illik pedaqoji fəaliyyətindən söz açmış, ömrünün yaddaqalan məqamlarından, yenilikçi pedaqoq, dəyərli ziyalı olmasından danışmış, yetirmələrini xatırlamış, ona uzun ömür, can sağlığı arzulamışlar.

Yubiley toplantısında məktəbin direktoru Şahrza Mirzəyev, Lerik Rayon Təhsil Şöbəsinin məsul işçisi Mehman Rəcəbov, müəllim Nəriman Ağazadə, Noda kənd ərazi icra nümayəndəsi Mirabbas Vəliyev, "Lerik" qəzetinin redaktoru İdris Şükürlü, Namaz Muradov adına Günəşli kənd tam orta məktəbinin direktoru Qurban Ağayev, Noda bələdiyyəsinin sədri Əliyar Ağayev, Qabil Əsgərov, valideyn komitəsinin sədri Səxavət Zeynalov, qardaşı İmran Zəkiyev, Noda kənd ağsaqqalı Möhübbət Ağayev, məktəbin dərs-hissə müdiri Şair Məmmədov, kürəkəni Elxan Qurbanov, A.Zeynallı adına Bakı Musiqi Kollecinin tələbəsi Şərif Ağayev, qaynı Əlikram Rəhmanov, dini icmanın rəhbəri Yaşar Ağayev çıxış edərək, Vəkil Zəkiyevin müsbət keyfiyyətlərindən danışmış, ona xoş arzularını bildirmişlər. Yubilyarın nəvələri Mirheydər və Zülfiyyə babaya uzun ömür arzulamışlar. Yuxarı sinif şagirdləri Vətəni, müəllimi tərənnüm edən şeirlər söyləmişlər.



Yubilyara xatirə hədiyyələri təqdim edilmişdir. Vəkil müəllim tədbirin təşkilatçılarına minnətdarlıq etmiş, xatirələrini söyləmişdir. *(Bizi izləyin)*

# Xocalı soyqırımı - bəşəri cinayət




Bəşəri cinayət - Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Xatırladaq ki, Xocalı qətliamı ölkədə hakimiyyətsizliyin, anarxiya və özbaşınalığın hökm süzdüyü bir şəraitdə baş vermişdir. Həmin dövrdə respublikamızda müxalif qüvvələrlə o zamankı iqtidar arasında ziddiyyətlər özünün son həddinə çatmışdı. Ölkəmizdə müstəqillik elan edilməsinə baxmayaraq, Azərbaycana rəhbərlik edənlər hələ də Rusiyanın təsir dairəsindən çıxmağa tələsmir və bunun nəticəsi kimi müstəqil ordu yaratmaq barədə düşünmürdülər. Məhz son dərəcə ciddi məsələlərə belə qeyri-ciddi yanaşmanın nəticəsi Xocalı faciəsinə gətirib çıxardı.

Xocalı əhalinin tarixən məskunlaşdığı yerdir və qədim tarixi abidələr indiyə qədər qalmaqdadır. Xocalının yaxınlığında bizim e.ə XIV-VII əsrlərə aid edilən Xocalı-Gədəbəy mədəniyyətinin abidələri yerləşir. Burada son tunc və ilkin dəmir dövlərinə aid edilən dəfn abidələri - daş qutular, kurqanlar və nekropollar tapılmışdır. Arxeoloji qazıntılar zamanı müxtəlif daş, tunc, dəmir, sümük bəzək əşyaları, gildən hazırlanmış ev əşyaları və s. tapılmışdır. Tapılmış muncuq dənələrindən birinin üzərində Assuriya şahı Adadnerarinin adı həkk olunmuşdur.

Ermənilərin Xocalıya əsas maraqları bu rayonun tarixinin çox qədim olması, strateji mövqeyə malik olması ilə əlaqədar idi. 7 min nəfər əhalisi olan Xocalı Xankəndindən 10 kilomletr cənub-şərqdə yerləşirdi, yeganə aeroport da Xocalıda idi.

1988-ci ildən başlamış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tarixində ən qanlı, qəddar hadisələrdən biri hesab olunur, tarixdə bizə məlum olan Babiyar, Xatın, Liditse, Şonqmi faciələri ilə eyni səviyyədədir.

1991-ci ilin oktyabr ayından Xocalı blokadada idi. Avtomobil yolları bağlanmış, yeganə nəqliyyat vasitəsi vertolyot qalmışdı. Xocalıya sonuncu vertolyot 1992-ci il yanvar ayının 28-də endi. Şuşa səmasında mülki vertolyotun vurulması nəticəsində Azərbaycanın 40 nəfər vətəndaşı həlak oldu, şəhərlə hava əlaqəsi də kəsildi. Elektrik enerjisindən məhrum olan xocalılar yalnız öz qəhrəmanlıqları və şəhər müdafiəçilərinin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdular. Şəhərin müdafiəsi əsasən avtomat və ov tüfəngləri ilə silahlanmış yerli özünümüdafiə dəstələri, milis və ordunun döyüşçülərindən təşkil olunmuşdu.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı qırğını baş verdi. Ermənin silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etdilər. Xocalıya hücum istiqamətdə aparıldığından əhali Əsgəran istiqamətində qaşmağa məcbur olmuşdu. Sonra məlum oldu ki, bu ermənilərin məkrli hiyləsi imiş. Naxçıvanik kəndi ərazisində pusquya düşmüş əhali müxtəlif çaplı silahlardan açılan atəşlə güllləbaran edildi, şəhər od-alova büründü. Mühasirədən çıxıb qaçmağa müvəffəq olan sakinlər təqib edilərək Kətik meşəsində, Naxçıvanik yolunda, Qaraqaya ətrafında, Dəhraz kəndi yaxınlığında, Şelli istiqamətində, Əsgəran asfalt yolunun 86-cı kilometrliyində və digər ərazilərdə amansızcasına qətlə yetirildilər. Xocalıya hücum zamanı dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədildi. İstintaqla müəyyən edildi ki, ermənilər beynəlxalq hüquqda yolverilməz sayılan soyqırım cinayətinə şüurlu, məqsədli şəkildə, bilərəkdən əl atıb, misli görünməmiş cinayət törətdilər. BMT Baş Məclisinin 1946-ci il 11 dekabr tarixli 96 saylı qətnaməsinin müvafiq müddəalarına zidd bədnam əməllər, genosid törətdilər.

XX əsrin faciəsi olan Xocalı soyqırımı zamanı 5396 nəfər əhali deportasiyaya məruz qalıb, 613 nəfər, o cümlədən 63 nəfər azyaşlı uşaq, 106 nəfər qadın vəhşicəsinə qətlə yetirilib, 8 ailə bütövlüklə məhv edilib, 48 nəfər müxtəlif bədən xəsarəti alıb, 1275 nəfər əsir və girov götürülüb. Girov götürülənlərin taleyi indi də məlum deyil.

Ulu öndər Heydər Əliyev demişdir: "Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin ifadəsidir. İkinci tərəfdən də, Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımdır - vəhşiliyin görünməmiş bir təzahürüdür".

Ulu öndər Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra Xocalı faciəsini törədənlərin əsl səbəbləri və günahkarlar barədə xalqa məlumat verilmiş, 1994-cü ildə verdiyi fərmanla, Milli Məclisin qərarı ilə 26 fevral "Xocalı Soyqırımı və Milli Matəm Günü" elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. 25 fevral 1997-ci ildə "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Prezident Heydər Əliyev tərəfindən fərman imzalanmışdır.




Prezident İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gərgin fəaliyyəti nəticəsində Xocalı qətliam barədə dünyanın bütün ölkələrinə ətraflı məlumat verilmişdir.

Azərbayca xalqı və onun dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaq. Hər bir azərbaycanlının qəlbi soyqırıma məruz qalmış soydaşlarımızın yaxınları, doğmaları ilə birgə döyünür.

***İdris Şükürlü***

**Layihənin istiqaməti:** ***Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi***

# Lerikin inkişafında yeni mərhələ başlanıb

### Sabitlik əsas şərtdir

Yeni Azərbaycan Partiyasının VI qurultayında Partiyanın sədri Prezident İlham Əliyev nitqində demişdir: "Azərbaycanda sabitlik mövcuddur, sabitlik hər bir inkişafın əsas şərtidir... Bütün bəşəriyyət əyani şəkildə görür ki, sabitlik pozulduqda heç bir inkişafdan söhbət gedə bilməz. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun problemləri, onun qayğıları dayanır. Xalq-iqtidar birliyi Azərbaycanda sabitliyi şərtləndirən əsas amildir, bu gündə var və gündən-günə güclənir".

Azərbaycan çoxmillətli ölkə kimi inkişaf edir. Ölkədə bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, ölkəmizin, regionların uğurlu inkişafı üçün əsas amillərdən biridir. Azərbaycanda heç vaxt milli və ya dini zəmində heç bir qarşıdırma, anlaşılmazlıq olmamışdır. Bütün xalqların, dinlərin nümayəndələri dəyərli vətəndaşlar kimi öz işi, əməyi ilə ümumi inkişafımıza böyük töhfələr verirlər.

Dünya praktikası göstərir ki, sabitlik olmayan yerlərin aqibəti pis olur, münaqişəli ölkələrə investisiyalar qoyulmur, inkişafdan geri qalır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtiısadi inkişafı Dövlət Proqramı"nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan 29 yanvar 2018-ci ildə keçirilən konfransda dövlətimizin başçısı İlham Əliyev əldə olunmuş uğurlar və qarşıda duran vəzifələr barədə ətraflı məlumat vermişdir. Azərbaycan iqtisadiyyatı 14 il ərzində 3,2 dəfə artmış, qeyri-neft iqtisadiyyatı isə 2,8 dəfə yüksəlib. Sənayedə 2,6 dəfə, kənd təsərrüfatında 1,7 dəfə, qeyri-neft ixracı sahəsində 4,1 dəfə artım var. Azərbaycanın valyuta ehtiyatları 2004-cü ildəki 1,8 milyard dollardan 2018-ci ilin əvvəlinə görə 42 milyard dollara çatıb. On dörd ildə Azərbaycan iqtisadiyyatına 231 milyard dollar, 2017-ci ildə isə 14,6 milyard dollar sərmayə qoyulub.

### Problemlər həllini tapır

Öncə qeyd etmək lazımdır ki, regionların inkişaf etdikcə Lerik rayonunun sosial-iqtisadi inəkişafı da nəzərəçarpacaq dərəcədə hiss olunur. Dövlət başçısının imzaladığı bir sıra dövlət proqramları iqtisadiyyatın neftdən asılılıq dərəcəsini azaldıb, infrastrukturun yeniləşdirilməsinə səbəb olub. Qəbul edilmiş regional inkişaf proqramları regionlarda intilbah mərhələsinin əsasını qoyub, sahibkarlığın yüksəlişinə səbəb olub.

Təhsil millətin gələcəyi, taleyüklü məsələdir. Lerik rayonunun kəndlərində müasir tipli məktəb binalarının sayı 45-ə çatıb. 2017-ci ildə Almu, Qələbin, Veri-Əliabadi və kəndlərində məktəb binaları tikilərək istifadəyə verilmişdir. Yeni məktəblərin inşası nəzərdə tutulmuşdur.

Rayonun əhalisinin dayanıqlı elektrik enerıjisi ilə təmin edilməsinə, elektrik hava xətlərinin yeniləşdirilməsinə diqqət artmışdır. 10-04 kv-luq elektrik hava xətlərində təmir işləri həyata keçirilib, 3 mindən çox ağac dirək dəmir dirəklərlə əvəzlənmişdir. Lerik şəhərində 3, kəndlərdə isə 13 müasir tipli 10/0,4 kv-luq transformatorlaır şəbəkəyə qoşulmuşdur, 7 kənddə sipləşmə işləri davam etməkdədir.

Rayonda 494 kilometr avtomobil yolu vardır ki, bunun da 38 kilometri respublika əhəmiyyətli yollardır. Bu yollarda avtomobillərin fasiləsiz hərəkət etməsi üçün 52 nömrəli Yol İstismar MMC gündəlik nəzarət edir. Lənkəran-Lerik yolundakı aktiv sürüşmə zonaları, qalın qar örtüyü yağmurlu fəsillərdə avtomobillərin hərəkətini çətinləşdirsə də Lerikin yol ustaları hər bir çətinliyi fədakarlıqla aradan qaldırırlar.

Cənab Prezidentin diqqət və qayğısı ilə rayonda 48 kənd tam qazlaşdırılmışdır. Ötən il Mastail, Əvilə və Murya kəndlərinə mavi qazın verilməsi mərasimi keçirilmiş, əhali göstərilən diqqət və qayğıya görə ölkə başçısına, "Azəriqaz" İB-nin, Lerik rayonunun rəhbərliyinə hədsiz minnətdarlığını bildirmişdir.

Ölkə başçısının sərəncamı ilə 21 şəhər və rayonun 136 yaşayış məntəqəsində eyni zamanda əlavə olaraq 150, o cümlədən Gürdəsər və Boykəndil kəndlərində əhalini içməli su ilə təmin etmək məqsədilə artezian quyularının qazılması işləri davam etdirilir. Kələxan və Lələdulan kəndlərində artezian quyuları qazılaraq əhalinin istifadəsinə verilmişdir.

Rayonda həyata keçirilən belə məqsədyönlü işlərdən daha geniş söz açmağa lüzum yoxdur. Ölkə başçısı demişdir: "Məqsədimiz vətəndaşların həyatını daha da yaxşılaşdırmaq, dövlətin daha güclü və uğurlu olması üçün çalışmaqdır". Bu sözlər regionlarda həyata keçirilən güclü siyasəti əks etdirir.









### İnfrastruktur layihələr icra olunur

Azərbaycan Prezidenti İlham Əliyevin təbirincə desək, 2004-cü ilin əvvəllərində qəbul edilmiş proqram regionlarda dönüş yaradıb və bölgələrin sürətli inkişafını təmin edib: "Ölkəmizdə köklü islahatlar icra edilmişdir. Bölgələrdə infrastruktur layihələr icra edilmişdir. İnfrastruktur layihələri həm ölkəmizin ümumi inkişafına böyük təkan verdi, eyni zamanda, bizim transmilli infrastruktur layihələrimiz Avrasiya enerji və nəqliyyat xəritəsini dəyişdi".

Son illər ölkə rəhbərinin Lerikdə yol infrastrukturunun yenilənməsi ilə bağlı imzaladığı sərəncamlar əhalinin daha sıx yaşadığı ərazilərdə müasir yolların tikintisinə şərait yaratmışdır. Prezidentin sərəncamı ilə ayrılan vəsaitlə 26,5 kilometrlik Lerik-Qosmalian-Kəlvəz avtomobil yoluna asfalt-beton örtük çəkilmiş, körpülər inşa olunmuşdur. Dövlət vəsaiti ilə 36 kilometr uzunluqda Noda-Şingədulan-Xanagah avtomobil yolunda əsas işlər başa çatdırılmışdır, tikinti işləri davam etdiriləcəkdir. Piran-Vıjaker yolu müasir görkəmə gətiriləcəkdir.

Ölkədə fasiləsiz içməli su ilə təminat ötən il 67 faizə qaldırılıb. Milli Su Təchizatı və Kanalizasiya xidmətləri üzrə 2-ci layihə Lerik şəhərində uğurla icra edilir. Burada ilk dəfə olaraq ən müasir tipli içməli su və kanalizasiya sistemi yaradılır. Qosmalian-Lerik yüksək təzyiqli magistral su xətti çəkilmiş, şəhərdaxili su və kanalizasiya xətlərinin əsas hissəsi quraşdırılmışdır.

Tikintinin sahə rəisi Anar İmanov tikintidə işlərin gedişi barədə belə deyir:

- Layihəyə uyğun olaraq içməli suyun təmizlənərək əhaliyə verilməsi, çirkab su və kanalizasiya xətlərində, çirkab su kollektorunda və çirkab sutəmizləyici qurğularında son tamamlama işləri görülür. 200 ton tutumu olan beton çənlər, sudurulducu çənlər, nasos stansiyası, havatəmizləyici qurğu və idarə binası istismara hazırdır.

Qurğunun ətrafında uzunluğu 300 metrdən çox, eni 5 metr olan beton hasarda iş sona çatıb. Yeni qurğunun ətrafı abadlaşdırılır. Tezliklə Lerik şəhər əhalisi yeni qurğunun xidmətindən istifadə edəcəkdir.

Lerik rayonunun nadir ağaclarla zəngin olan meşələri 40,5 min hektar sahəni təşkil edir. Hər il rayonun meşəçiləri 100 hektara yaxın meşə sahələrini bərpa edirlər. Ekologiya və Təbii Sərvətlər Nazirliyi rayonda yeni layihənin həyata keçirilməsinə start verib. 2017-ci ildən başlayaraq 2021-ci ilədək hər il orta hesabla 80 hektar (cəmi 400 hektar) yeni meyvə bağlarının (aqro meşə) salınmasına başlamışdır. Rayon meşə mühafizəsi və bərpası müəssisəsinin kollektivi 88 hektar sahədə qoz cinsindən olan bağ salmışdır.

Lerikdə infrastruktur layihələri uğurla həyata keçirilir, tikinti-quruculuq işlərinin vüsəti artır, rayonda yeni iş yerləri yaradılır, iqtisadi-sosial inkişafa, turizmə geniş meydan verilir, sahibkarlar yeni müəssisələr açır, məhsul istehsalını artırırlar.

### Kənd təsərrüfatı prioritet sahədir

Azərbaycan rəqabətə davamlılıq üzrə inkişaf etməkdə olan ölkələr sırasında Davosda keçirilən növbəti Dünya İqtisadi Forumunda 3-cü yerə layiq görülüb. Prezident İlham Əliyevin vurğuladığı kimi, iqtisadiyyatın şaxələndirilməsi uğurla davam edir. Azərbaycanda milli gəlirin 70 faizi qeyri-neft sektorunun payına düşür.

Azərbaycan bəzi dövlətlərdən fərqli olaraq özünün uğurlu iqtisadi modelini seçmiş, strateji hədəflərini düzgün müəyyənləşdirmişdir. Aqrar sektorda əsaslı dəyişikliklər baş verib, yeni iqtisadi və mülkiyyət formaları formalaşıb, normativ hüquqi baza formalaşdırılıb. Prezident İlham Əliyev demişdir: "Dövlət əkin sahələrinə, yanacağa, gübrəyə subsidiyalar, sahibkarlara güzəştli şərtlərlə kreditlər, texnikalar verir. Fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddır. Yəni dövlət hər şeyi edir. İkinci bir dövlət tapmaq olmaz ki, fermerlərə bu qədər dəstək olsun". Prezidentin kənd təsərrüfatının inkişafına qayğı və diqqətlə yanaşması lerikli fermerlərin, fərdi təsərrüfat başçılarının işə marağını artırmış, onları məhsul bolluğu yaratmağa səfərbər etmişdir.

2016-cı ilin payızında və 2017-ci ilin yazında 4949 hektarda, əvvəlki ilə nisbətən 694 hektar çox əkin aparılmışdır. 6289 ton, yəni əvvəlki ilə nisbətən 9649 ton çox məhsul istehsal olunmuşdur. Hər hektardan 23,5 sentner buğda və arpa əldə olunub. Məhsul istehsalçılarından Cahid Qubadov, İmran İbadov, Rükəkan Əzizov, Gülverdi Əsgərov, Müzəffər Mirzəyev, İsa Bağırov, Əbülfət Hacıyev, Ağarəhim Nəzərov isə becərdikləri taxıl sahələrindən 30-40 sentner taxıl götürməyə müvəffəq olmuşlar.

Rayonun iqtisadiyyatında xüsusi yer tutan heyvandarlığın, qoyunçuluğun, quşçuluğun gəlirlə işləməsinə diqqət artmışdır. Diri çəkidə 4619,5 ton malqara və quş əti, 5962,5 ton süd 229,0 ton yun (fiziki çəkidə), və 7341 min ədəd yumurta istehsal edilmişdir. Məhsulun keyfiyyəti istehlakçıları razı salmışdır.

İri buynuzlu heyvanların süni mayalanma yolu ilə cins tərkibi yaxşılaşdırılır. Lerik rayonunda heyvandarlıqla məşğul olan ayrı-ayrı vətəndaşlar lizinq yolu ilə cins heyvanlar almış və onların zootexniki qaydada bəslənməsinə diqqəti artırmışlar. 2017-ci illə müqayisədə süni mayalanma yolu ilə 351 baş, yəni 205 baş çox buzov alınmışdır. Cins tərkibi yaxşılaşdırılmış hər sağlam buzova görə sahibkarlara 100 manat subsidiya verilmişdir. 2017-ci ildə 285 baş sağlam buzova görə 28500 manat subsidiya ödənilmişdir. 2017-ci ildə bitkiçilik məhsulları istehsalına görə vətəndaşlara 205914 manat subsidiya aqrokart vasitəsilə ödənilmişdir.

Ənənəvi əkinçilik məhsullarının inkişaf etdirilməsinə start verilmişdir. 2017-ci ildə 25 hektar sahədə tütün əkilmiş, 19,6 ton yarpaq təhvil verilmişdir. İl ərzində 120 tondan çox bal məhsulu isıtehsal olunur. Fındıqçılığın, tərəvəzçiliyin, çayçılığın inkişaf etdirilməsi, meyvə bağlarının salınması daha yaxşı iqtisadi səmərə verər, həm məşğulluğu təmin edər, həm də gəliri artırır.

Azərbaycan Prezidenti İlham Əliyev demişdir: "Kənd təsərrüfatı prioritet sahə olaraq qalır və qalacaqdır... Kənd təsərrüfatının bütün sahələri bizim üçün əhəmiyyətlidir. Biz ölkəmiz üçün ənənəvi olan sahələri dirçəldirik, bərpa edirik, yeni sahələr yaradırıq".

Prezidentin qərar, sərəncam və göstərişlərini dönmədən həyata keçirən leriklilər sosial-iqtisadi yüksəlişə nail olacaq, göstərilən diqqət və qayğıya əməli işlərilə cavab verəcəklər.

***İdris ŞÜKÜRLÜ***

***Yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçündür.***

# LERİK 2017-Cİ İLDƏ

***Dünyada qlobal iqtisadi böhranın davam etməsinə baxmayaraq, Azərbaycan Respublikası Prezidentinin apardığı məqsədyönlü siyasət nəticəsində ölkə iqtisadiyyatında dinamik inkişaf təmin edilmiş, ölkəmizin valyuta ehtiyatları 4,2 faiz artmış, qeyri-neft sektoru inkişaf etmişdir. Həyata keçirilən iqtisadi islahahatlar rayonun da sosial-iqtisadi inkişafında çox böyük irəliləyişlərə səbəb olmuş, istehsalın və əhali gəlirlərinin artması nəzərə çarpmışdır.***

İlkin hesablamalara görə 2017-ci ildə rayon üzrə əsas sahələr üzrə məhsul istehsalının həcmi xeyli artmışdır.

Bu müsbət nəticələr tikinti-abadlıq, ümumi daxili məhsulun artımı sahəsində, xalq təsərrüfatının , əsasən də kənd təsərrüfatının digər sahələrində görünməkdədir.

2017 - ci ildə rayon əhalisinin sağlamlığını qorumaq məqsədi ilə 7 xəstəxana, 19 ambulator - poliklinika müəssisələri fəaliyyət göstərir və onlarda da 51 həkim və 158 nəfər orta tibb işçisi çalışır.

Beləliklə rayon əhalisinin hər 10 000 nəfərinə 23 xəstəxana çarpayıları düşür. Son illərlə müqaisədə səhiyyə sahəsində əsaslı dəyişiklik olmamışdır.

Regionların sosial iqtisadi inkişafı sahəsində məlum fərmanlardan irəli gələn vəzifələrdən biri də səhiyyə obyektlərinin yenidən qurulması və ya köhnə xəstəxanaların təmir olunması, onların maddi bazasının möhkəmləndirilməsi olmuşdur.

Bu sahədə rayonda bir neçə xəstəxana əsaslı təmir olunmuş, ucqar kəndlərdə isə yeni ambulator və həkim məntəqələri tikilmiş, tibb kadrlarının hazırlanması üçün əməli tədbirlər həyata keçirilmişdir.

### KƏND TƏSƏRRÜFATI

Rayonda kənd təsərrufatının əsasını heyvandarlıq və bitkiçilik sahələri təşkil edir. 2017-ci ildə rayonun kəndli fermer və habelə şəxsi təsərrüfatlarında 2678 hektar sahədən payızlıq və yazlıq bitkilər yığılmışdır. Bu sahələrdən 6289,0 ton məhsul toplanmışdır. (qarğıdalısız)

Eyni zamanda tərəvəz və digər kənd təsərrüfatı bitkilərinin də əkin sahələri ildən ilə genişləndirilir. Artıq 2018-ci ilin məhsulu üçün 2878 ha payızlıq əkin səpilmişdir.

2017-ci il ərzində rayon üzrə cəmi 2845 ha sahədən 6551,3 ton taxıl istehsal olunaraq, ha-dan 23,4 sentner taxıl əldə olunmuşdur. Rayon üçün kartofçuluq əsas istehsal sahəsidir və bu məqsədlə 17350,1 ton məhsul əldə olunmuşdur. Hər hektardan 126,0 sen kartof yumruları götürülmüşdür.

Eyni zamanda tərəvəz və digər kənd təsərrüfatı bitkilərinin də əkin sahələri ildən-ilə genişləndirilir. Artıq 2018-ci ilin məhsulu üçün 2878 ha payızlıq əkin səpilmişdir.

Rayon ərazisi müxtəlif iqlim şəraitinə malik olduğu üçün bir hissəsində yaxşı taxıl, bir hissəsində kartof o biri hissəsində tərəvəz və meyvəçilikdən yüksək məhsul götürmək olur.

Keçmişdə yaxşı çay plantasıyaların olmasına baxmayaraq hazırda onlar baxımsızlıqdan məhv edilmişdir.

Rayonun Nüvədi, Əliabad Şingədulan, Noda, Züvüç, Livədirqə, Cəngəmiran və digər ərazilərində daha çox taxıl əkmilir, hər hektardan 26-28 sentner məhsul götürülmüşdür.

Rayonun Orand, Çayrüd, Veri, Daster, Pirasora, Kələxan Noda və Mistan ərazilərində daha yaxşı kartof məhsulu, hektardan 160-200 sentner məhsul əldə olunmuşdur.

Qosmalian, Kələxan, Vizəzəmin, Siyov, Piran ərazilərində tərəvəz məhsularının yetişdirilir və hektardan yüksək məhsul əldə olunur.

Əsasən rayonun bütün kəndlərində kartof yetişdirilərək hektardan 130-135 sentnerə qədər məhsul götürülür. Hər ildəki kimi yetişdirilmiş məhsuldan lazımı qədər rayon əhalisi istifadə edir. Qalan hissəsi 100 tonlarla qonşu rayonların bazarlarında, habelə yarmarkalarda satılır.

Keçmiş 10 il ilə müqayisədə kartof istehsalı 2,5-3,0 dəfə artmışdır.

Yazlıq əkinlərin müəyyən qismində tərəvəzin də payı vardır. Tərəvəz növlərindən əsasən soğan, sarımsaq, kələm, xiyar, pomidor və digərləri ayrı - ayrı ərazilərdə əkilir. Tərəvəzin orta məhsuldarlığı 130 sentnerə çatmışdır. İqlim şəraitinə görə bostan məhsulları yetişdirilmir. Rayon əhalisinin bu məhsula olan tələbatını bazar ödəyir.

2017-cı ildə 25 hektar sahədə tütün 1 hektar sahədə isə günəbaxan məhsulları istehsal edilmişdir.

Heyvandarlıq sahələrində mal-qaranın baş sayı azalmış məhsul istehsalı isə artmışdır. Qış otlaq sahələrinin alınması nəticəsində keçən ilin müvafiq dövrü ilə müqayisədə iri buynuzlu mal-qaranın baş sayı 5,7%, qoyun - keçilərin baş sayı isə 13,2% azalmışdır, diri çəkidə ət istehsalı ötən ilin səviyyəsindən 0,5% artmışdır, süd istehsalı 1,7% artmışdır.

Heyvandarlıq 2017-ci ilin 12 ayında rayonun bütün təsərrüfat kateqoriyalarında 5821,9 ton (diri çəkidə) ət, 15967,3 ton süd, 229 ton yün (fiziki çəkidə) və 7341 min ədəd ev quşlarından yumurta istehsal olunmuşdur.

Rayonun təsərrüfatlarında iri buynuzlu və xırda buynuzlu heyvanların və ev quşlarının baş sayı azalmışdır. Muğan qışlağındakı torpaq sahələrinin alınması nəticəsində rayon üzrə mal-qaranın və qoyun-quzunun baş sayı kəskin surətdə azalır.

Belə ki, 2018-ci ilin 01 yanvar tarixinə bütün təsərrüfat katiqoriyalarında 36.6 min baş iri buynuzlu qaramal o, cümlədən 16.5 min baş inək və camış, 111.17 min baş qoyun və keçilər mövcud olmuşdur ki, bu da ötən ildəkindən 1527 baş qara mal, o cümlədən 372 baş inək və camış, eləcə də 16862 baş qoyun-quzu azdır.

Rayonun Tikəband, Çayrud, Vizəzəmin, Osiodərə, Noda, Nuvədi Kirəvud və digər ərazilərində daha çox qaramal, Çayrud, Veri, Pirasora, Şingədulan, Nüvədi, Nuravud ərazi dairələrində isə digər ərazilərə nisbətən çox qoyun - keçi saxlanılır.

### QUŞÇULUQ

Lerik rayonunda "Lerik Broyler MMC" quşçuluq kompleksi 2017-ci ildə 1010000 baş quş yetişdirərək 10036 sen quş əti istehsal edib satmışdır. Bu müəssisədə 51 nəfər fəhlə və qulluqçu çalışır ki, ötən təsərrüfat ilində onlara 83734 manat əmək haqqı verilmişdir və hər işçinin orta aylıq əmək haqqı 137 manat olmuşdur. Yuxarida qeyd edildiyi kimi 2017-ci ildə müəssisədə baş verən qəzalar və digər səbəblər üzündən müəssisə tam gücü ilə işləyə bilməmişdir.

Qeyd edilməlidir ki və kənd adamları da yaxşı bilir ki, bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatının hər hansı sahəsi ilə məşğul olmaq mütləqdir.

Hazırda təsərrüfatlar üçün ən sərfəli sahə maldarlıq və qoyunçuluqdur. Lakin ayrı-ayrı hüquqi və fiziki şəxslərin 100 mindən çox qoyun-quzusu qışda Muğan qışlağında, yayda isə rayonun yaylaqlarında saxlanılır. Lakin son illər Muğan qışlağının alınması qoyunların sayının kəskin azalmasına səbəb olmuşdur.

### TƏHSİL

2016 - 2017 - ci tədris ilində rayonda 105 gündüz ümumitəhsil məktəblərində 7036 nəfər şagird təhsil alır, onların 87.5%-i birinci, 12,5%-i isə ikinci növbədə oxuyurlar. 2015-2016-cı tədris ilinə nisbətən şagirdlərin sayı 246 nəfər və ya 5.5% azalmışdır. Şagirdlərin azalmasının əsas səbəbi də odur ki, cavan ailələr qanuni-qanunsuz Bakı, Sumqayıt şəhərinə və qonşu rayonlara, bir qismi xarici ölkələrə köçmüşlər. Rayonun 1 şəhər və bir neçə iri və xırda kəndlərində 15 dövlət məktəbəqədər uşaq müəssisəsi (bağça) fəaliyyət göstərir və onlarda 502 nəfər uşaq tərbiyə alır. Onu da qeyd edək ki, cari ilin əvvəlində Lerik şəhərindəki və Piran kəndindəki uşaq bağçaları özələşdirilməyə hazırlanmışdır.

Rayonun bütün məktəb və uşaq müssəsisələrin hamısında 1486 nəfər müəllim və pedoqoji işçilər işləyirlər. Ümumilikdə rayon əhalisinin təhsil səviyyəsi ildən ilə artır. Hazırda elimlər namizədlərin sayı 17 nəfərə, ali təhsilli mütəxəssislərin sayı 2957 nəfərə, orta ixtisas təhsilli mütəxəssislərin sayı isə 3066 nəfərə çatmışdır.

Rayon ərazisində ali və orta ixtisas təhsilli verən heç bir təhsil müəssisəsi yoxdur. Mövcüd peşə məktəbi isə ildə 20 nəfər şagird qəbul olunur və bir iki il müddətinə qadın bərbəri, xalça ustası, kompüter kursu, traktoriçu mütəxəssisləri istehsalatın ayrı-ayrı sahələrinə göndərilir.

### MEŞƏ TƏSƏRRÜFATI

Lerik rayonunun ərazisində 40,5 min hektar meşə sahəsi vardır ki, bu da rayon ərazisinin 37% ni təşkil edir.

İldən ilə meşələrdə sanitar təmizlik işləri aparılır və eyni zamanda meyvə verən ağaclar hesabına meşə sahəsi artırılır.

Meşə təsərrüfatı mövsüm ilə əlaqədar işçilərin sayını müvəqqəti artırır və ya azaldır.

İl ərzində işçilərin orta siyahı sayı 96 nəfərdir.

Ümumilikdə 2017-ci ildə işçilərə cəmi 210,3 min manat əmək haqqı verilmişdir. Bu hesabla hər işçinin orta aylıq əmək haqqı 182 manat olmuşdur və 2016-cı ilə nisbətən əmək haqqı 17 manat və ya 8,6% azalmışdır.

### RABİTƏ

Rayonda iki rabitə təşkilatı fəaliyyət göstərir. Poçtamt və Telekommunikasiya təşkilatlarından ibarət olmaqla əhaliyyə poçt və telekommunikasiya xidməti göstərirlər.

2017-cı ilin yanvar - dekabr aylarında rabitə sektorunda fəaliyyət göstərən müəssisələr tərəfindən istehlakçılara faktiki qiymətlə 576,0 min manatlıq və ya ötən il ilə müqayisədə 19,3 min manat və ya 3,1% çox rabitə xidməti göstərmişdir.

Göstərilən rabitə xidmətlərinin 92,8 min manatı və ya 16,1% i idarə və müəssisələrə, qalan 83,9%-i və ya 483,2 min manatı isə əhaliyə göstərilmişdir.

2017-cı ildə rabitə sahəsində yeniliklər olmuş, yeni elektron tipli ATS-lər quraşdırılmış, yeni kabel xətlərin çəkilmiş və s. işlər görülmüşdür.

### NƏQLİYYAT

Rayon iqtisadiyyatının digər sahələrində olduğu kimi, nəqliyyatın inkişafında müşahidə olunan artım ilin 12 ayında da davam etmişdir.

2017-ci ildə nəqliyyatın bütün növləri ilə 371 min ton və ya ötən 2016-ci illə müqayisədə 2,8% çox yük daşınmışdır.

Nəqliyyat sektorunda yük daşınması üzrə qeyri dövlət sektorunun payı 100% olmuşdur.

Müxtəlif növ nəqliyyatı vasitələri ilə 1650 min sərnişin daşınmış və daşımalar 2016-cı ilin 12 ayı ilə müqayisədə 36 min və ya 2,2 % artmışdır. Nəqliyyat sektorunda yük və sərnişin daşınmasından 3140,3 min manat gəlir əldə olunmuşdur ki, bu da 2016-cı ilə nisbətən 104,4 min manat və ya 3,4% çoxdur.

### ƏSASLI TİKİNTİ

Rayon ərazisində 2 tikinti təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlar əsasən təmir işləri ilə məşğul olmuşlar. 1 təşkilatın il boyu heç bir fəaliyyəti olmamışdır.

2017-ci ilin 12 ayı ərzində tikinti təşkilatları 52 saylı Yol Tikinti idarəsi 920,1 min manatlıq iş görmüşlər ki, bu da 2016-ci ilə nisbətən 211,5 min manat artmışdır.

Görülən işlərin hamısı cari işlərdir.

Rayon Təmir Tikinti sahəsinin və Aqrar tikinti filalının il boyu fəaliyyəti olmamışdır. Tikinti təşkilatlarında 85 nəfər fəhlə və qulluqçular çalışırlar. Bunlara 2017-ci ilin 12 ayında 288000 manat əmək haqqı verilmişdir. 2017-ci ildə hər işçinin orta aylıq əmək haqqı isə 282,4 manat olmaqla əvvəlki ilə nisbətən 20,4 manat çoxdur.

Lerik Aqrotikinti filialı 2017-cı il ərzində heç bir fəaliyyət göstərməmişdir.

Mərkəzləşdirilmiş qaydada nazirlik və müəssisələr üzrə əsas kapitala yönəldilmiş investisiyalar olmamışdır.

Lerik Rayon İcra Hakimiyyəti daxili imkanlar hesabına 2017-ci ildə 976 min manat dəyərində tikinti-abadlıq işləri həyata keçirmişdir. Fiziki şəxslərin investisiya qoyuluşu 1576 min manat olmuşdur.

İstehlak bazarının müxtəlif çeşidli əmtəə ehtiyyatları ilə tam və dolğun təmin olunması, əhalinin pul gəlirlərinin yüksəldməsi nəticəsində alıcılıq qabiliyyətinin artması pərakəndə əmtəə dövriyyəsinin və əhaliyyə göstərilən pullu xidmətlərin həcminin getdikcə artmasına öz müsbət təsirini göstərir.

### YENİ İŞ YERLƏRİNİN AÇILMASI

Respublika Prezidentinin məlum fərmanına əsasən regionlarında açılacaq yeni iş yerləri sırasında rayonumuz da aktiv iştirak edir.

Belə ki, 2005-cı ilin IV rübündən hal - hazıra kimi 10 mindən cox yeni iş yerləri açılmışdır ki, bunun da 4 minə yaxını daimi iş yerləridir. Təkcə 2017-ci ilin 12 ayı ərzində 1680 iş yeri açılmışdır ki, bunlar da əsasən aşağıdakı sahələri əhatə edir.

Yeni açılmış müəssisə və təşkilatlarda 20, fiziki şəxslərdə 967 nəfər və digər tədbirlər üzrə 345 yeni iş yerləridir.

Yuxarıdakı rəqəmlərdən göründüyü kimi yeni yaradılmış iş sahələrində əsasən işsiz əhali işlə təmin olunur.

Rayon ərazisində əhali arasında işsizliyin aradan qaldırılması üçün əhəmiyyətli tədbirlər həyata keçirilir ki, bu da əhalinin sosial rifah halını ildən-ilə yaxşılaşdırır.

Yeni açılmış iş yerlərində, xüsusi ilə təmir-tikinti, abadlıq işlərində, yol çəkilişi, qaz çəkilişi sahəsində işləyənlər yüksək məbləğdə əmək haqqı alırlar.

2010-ci ildən «Bir pəncərə» sistemi yarandıqdan sonra sahibkarların sayı, o cümlədən fiziki şəxslərin sayı daha çox olmuş və bunlar da öz növbəsində yeni iş yerinin açılması deməkdir

***Nizaməddin Muradov,***
***Lerik rayon Statistika İdarəsinin rəisi***

# İslamın nuru, İslamın mahiyyəti

Din-insanları dünyada və axirətdə saflığa, xoşbəxtliyə, əbədi yaxşılığa qovuşduran ilahi bir qanundur. Allah tərəfindən Peyğəmbər (s.ə.s.) vasitəsilə insanlara çatdırılan heç bir dəyişikliyə məruz qalmayan, bütün gözəl xüsusiyyətləri özündə cəmləşdirib bu günümüzə qədər gəlib çatan din İslam dinidir. Allah-Təala yanında da yeganə və əziz olan din İslamdır. Hətta Qurani-Kərimdə buyrulmuşdur ki: "Allah yanında din şübhəsiz İslamdır" (Ali İmran surəsi, ayə 19). Eləcə də: "Kim İslamdan başqa bir din arasa ondan əsla qəbul edilməyəcəkdir. O, axirətdə zərərə uğrayacaqdır" (Ali İmran surəsi, ayə 85).

Uca Allah bizi əbədi yuvasına çağıraraq sonsuz xoşbəxtliyə qovuşdurmaq üçün yollar göstərmişdir. İslamın mənəvi aləmi zəngin, gözəl və qüsursuzdur. İslam dinin:

İman;

Əməl;

Əxlaq kimi hökmlərinə uyğun hərəkət etsək, onlar bizə həm bu dünya, həm də axirət dünyası üçün xoşbəxtlik qazandırar. Dinimizin başlıca amalı budur: "Heç vaxt ölməyəcəyini düşünüb bu dünya üçün çalış, Sabah öləcəyini düşünüb axirət üçün çalış". İnsanın Allah qarşısında ilkin vəzifəsi iman gətirib, ibrətlərini yerinə yetirməkdədir. Buna rəğmən bizim üçün ən gözəl yol sevimli Peyğəmbərlərimizin yoludur. Bəzən bunu düzgün şərh edə bilmirlər. Ona görə də bəzi şəxslərdə dinimiz haqqında doğru olmayan, mənfi fikirlər yaranmışdır. Lakin o şəxslər bilmirdilər ki, nöqsan dinimizdə deyil, məhz bizim özümüzdədir. Biz insanlar ya dərk edə bilmirik, ya da kiminsə nadanlığı üzündən düz olan yoldan yayınırıq. Üzərimizə düşən biliklərə sahib olmaq üçün yetərincə lazımi biliklərə yiyələnməliyik. Şünbıhəsiz ki, İslamın qanunlarına əməl etməklə.

Tarixən bir çox dinlər mövcud olsa da İslam dini son dindir. Ondan sonra din olmayacaqdır. Bu dini insanlara təbliğ edən Həzrəti Məhəmməd (s) son peyğəmbərdir. Ondan sonra Peyğəmbər gəlməyəcəkdir. Dinimizin əsas xüsusiyətlərindən buru odur ki, bu din bütün zamanlar üçün, bütün dünya millətlərinə göndərilmişdir. Onun kökmləri bütün insanların ehtiyaclarını ödəyəcək şəkildə mükəmməldir. Bu səbəbdən: - ey, həmvətənlərimiz, öz dinini bu güni qədər tanımayan dırnaqarası bacı-qardaşlarımız, gəlin nəfsimizə hakim olub, qəlbələrimizin saflığı naminə ədəbi dinimizə sahib olaq.

İslam ağıl və elm dinidir. Bu, nə deməkdir? Bu, ondan ibrətdir ki, ağıl İslam dini üçün önəmlidir. Çünki yalnız ağıllı insan dini bilikləri daim oxuyub-öyrənmək və ondan bəhrələnmək bacarığına malikdir. Ağıllı insan təfəkkürü və təxəyyülü İslamın fəlsəfəsini, onun mahiyyətini çözməyə qadirldir. Bu, yalnız sadəcə fərq deyil, ağıllı, yetkin , şəxsiyyət olmaq zəruridir. O da məlumunuz olsun ki, dinimizi zorla, məcburən, güclə qəbul etmək lazım deyil. Hələ tələb də olunmur. Sadəcə mərhələ-mərhələ, düşünə-düşünə bunları etsək, hər şeyə nail ola bilərik. Əsla ilk baxışdan çəkinmək, qorxmaq lazım deyil. Məsələn,

Namazını ayaq üstə qıla bilməyən şəxs, onu oturaraq qıla bilər. Yaxud xəstə olan şəxs Ramazan ayında oruc tuta bilmirsə, başqa vaxt onu davam edə bilər. Yaxud xəstə olan şəxs Ramazan ayında oruc tuta bilmirsə, başqa vaxt onu davam edə bilər. Ona görə də İslam dininin hökmləri hər zaman və hər yerdə uyğunlaşa bilən keyfiyyətlərə malikdir. Yerinə yetirilməsi buyurulmadığı halda din adına çıxaraq özünə əzab vermək, dünyanın nemətlərindən uzaqlaşdırmaq İslam dininə yaddır.

Dinimiz həm də barışıq və sevgi dinidir. Bir-birimizi bağışlamağı, bir-birimizi sevməyi, başqasının haqqında sadiq qalmağı bacarmalıyıq. Uca Tanrı - doğulmayan, doğmayan, heç kəsdən və heç nədən yaranmayan, öz-özündən olan, bütün yaranışların sahibi, gözə görünməz VARLIQ daim ürəyinizdə olsun. Əgər belə olarsa, sizin mövqeyiniz Allah dərgahında mələklərdən də yüksək mərtəbədə olan Ali İnsan səviyyəsində olacaqdır.



*Yaşar Ağayev,*
*Noda kənd dini icmasının rəhbəri*

# Mirzə Əli Möcüzlə görüş



1927- 1928-ci illər idi. Ondan mən Bakıda, bir dərəcəli məktəbin beşinci sinifdə oxuyurdum. Ata- anam olmadığından uşaq evində yaşayırdım. Uşaq evində mənim Əziz adlı bir yoldaşım vardı. O, gözəl mahnı və muğam oxuyardı. "Qarabağ şikəstəsi" oxuyanda uşaqlar onun başına toplaşardılar. Mən o vaxtlar şeir yazardım. Arabir məybuatda şerlərim çıxardı. Bir gün Əziz mənə dedi:

- Xalamın əri .airdir. Sənin şeir yazmağını ona danışmışdım. Şerlərindən birini ver, ona göstərmək istəyirəm. İstedadını bilmək istəyir.

Mən "Sevgilim" rədifli qoşmanı və bir qəzəli ona verdim. Mənə elə gəlirdi ki, üzünü görmədiyim, şəxsən tanımadığım şair şeirimi oxuyub bəyənəcək, mənə "əhsən!" deyəcək və ya şeirdəki qüsurlarımı göstərib rəyini bildirəcək. Amma düşündüyüm kimi olmadı. Aradan iki gün keçmiş Əziz mənə dörd tərəfdən qatlanmış bir lağız verdi. Naməlum şairin cavabı məni çox həyəcanlandırırdı. Xüsusən qəzəlin bir yerində yazmış olduğu:

***Hər kəs özün aşiq salıban gər verə min can,***
***Məşuqə yetib vasil canan ola bilməz!-***

Misraları mənə bərk toxundu. Cavab yazmaya bilməzdim. Necə deyərlər, təbim cuşa gəldi. Qələmi götürüb yazdım və aşağıdakı misraları Əzizə oxudum:

***İstər aşiq olsun, ya ki, arif, nə təfavüt?***
***Pərvanə kimi atəşi eşqə tutar əvvəl.***
***Əlbəttə, o şəxs kəsbi kəmal eyləyə bilməz,***
***Zəhmət çəkib məktəbdə axıtmazsa tər əvvəl.***

Əzizdən qəzəli Mirzəyə çatdırmağa xahiş etdim. Üç gündən sonra o, mənə aşağıdakı misralarla başlanan şeiri təqdim etdi:

***Əql eyləməsə hər kəsə şahin gəzər əvvəl,***
***Divanə kimi dəhrdə ol kəs gəzər əvvəl!***
***Aşiqlik ilə ürfdə var çoxlu təravüt,***
***Bu elm kimi eşqə nə kam yetər əvvəl?***
***Yazsan mənə ürfanı kağız, yazgilən daim,***
***Mən sevgili bilməm, cocuğum, ol xəbər əvvəl!***

Doğrusu, çeiri oxuduqda yenə həyəcanlandım. "Mən sevgili bilməm, cocuğum, ol xəbər əvvəl" misrası mənə çox toxundu. Cavab olaraq yazdım:

***Yandırmasa ta qəlbini eşq atəşi, adə!***
***Ötməz sinədə cuşa gəlib can quşu, adə!***

***Eşqin dadını sevdalı kəslər bilər ancaq,***
***Bu zövqü duya bilməz, axı, hər kişi, adə!***

***Bilməm qocalıbsan, qocalıq üz verən anda,***
***Gəlməz kiminin sevdadan hərgiz xoşu, adə!..***

Təəssüf ki, bu dəfə şeirimə cavab gəlmədi. Səbəbini soruşduqda Əziz mənə dedi:

- Şerindəki "adə" sözü onun xoşuna gəlməyib. Əvvəl istədi səni həcv atəşinə tutsun. Lakin sonra nə düşündüsə, fikrindən daşındı.

Bir gün Əzizlə Kömürçü meydanına getmişdik. Arada biz qrammafon vallarında oxuyan qocaman xanəndələrin muğam və mahnılarına qulaq asdıq. Noyabr ayının axırları idi. Hava soyuq olduğundan meydanda çox qala bilmədik. Evə qayıdanda yolumuz Quba meydanından düşdü. Burada Təzəpir məscidinə səmt uzanan küçənin sağ cinahında birmərtəbəli evlər, dükanlar vardı. Əziz taxta darvazalı qapını göstərib, məni ora dəvət etdi. Biz açıq darvazadan həyətə keçdik. İçəridə burnumuza təzə bişmiş çörək və halva qoxusu dəydi. Çörək rəfinə girdə, xına kimi qırmızı, xaşxaşlı çörəklər düzülmüşdü. Əziz məni özü ilə içəri apardı. Dükanın səkisində üz- üzə iki cərgə adam oturmuşdu. Məclisin yuxarı başında, buxarının yanında qalın qaşlı, qara saqqallı bir kişi oturmuşdu. Onun iti, nüfuzedici baxışları vardı. Görünür, məclisin böyüyü idi. O, ağır- ağır danışır, məclisdəkilər sükut içində onu dinləyirdilər. Biz içəri girəndə onlar heç vəziyyətlərini dəyişmədilər. Amma məclisin başındakı kişinin məni iti baxışlarla süzdüyünü hiss etdim. Bizim içəridə qalmağımız çox çəkmədi, Əziz qulağıma pıçıldayaraq:

- Səninlə şeirləşən Mirzə o kişidir,- deyə məclisin başında əyləşib söhbət edən adamı mənə nişan verdi. - Cənubi Azərbaycandandır.

Əzizin dediyinə görə , onun yanına gələnlər Arazın o tayından idilər. O vaxt Bakıda çörəkçi, pitiçi dükanları vardı. Bu dükanların çoxunu Cənubi Azərbaycandan gələnlər işlədirdilər.

Sən demə, bu şəxs mənim tanımadığım, amma şeirləşdiyim şair Mirzə Əli Möcüz imiş. Sonralar eşitdim ki, o, 1934- cü ildə vəfat etmişdir.

**Əbülfəz Qazıyev**

# Bakıda Novruz bayramı münasibətilə konsert təşkil edilacək

Heydər Əliyev Sarayı bayram tətili günlərində uşaqları maraqlı, musiqili və əyləncəli proqramla sevindirəcək. Martın 24-də Sarayın səhnəsində "Bayramlar gözəli, Novruz bayramı" adlı möhtəşəm bayram konserti təşkil ediləcək.

Sarayın mətbuat xidmətindən bildirilib ki, hər il olduğu kimi, novruzun sevilən personajları Kosa və Keçəl, Bahar qızı şənliyin əsas simaları olacaqlar. Sevimli qəhrəmanlar uşaqlara Novruz bayramı, baharın gəlişi, çərşənbələr və digər adət-ənənələr haqda məlumat verəcək, müxtəlif oyunlar hazırlayacaqlar.

Bundan əlavə, uşaqlar Keçəl və Kosanın məzəli deyişmələrindən ibarət səhnəcikləri, rəqs kollektivlərinin ifasında milli və müasir rəqsləri, illüziya şousunu, musiqili qonaqların və ilk dəfə olaraq səhnədə kəndirbazın çıxışını izləyə biləcəklər.




Saat 13:00-da başlayacaq konsertin biletlərini Heydər Əliyev Sarayının kassasından, iticket.az saytından onlayn, şəhərin kassalarından, "ASAN xidmət" mərkəzlərindən, "Gənclik" və "28 Mall" ticarət mərkəzlərindəki kassalardan əldə etmək olar.

Qeyd edək ki, bayram konsertinin informasiya dəstəkçiləri arasında AZƏRTAC-da var.



***N.Muradov adına Günəşli kənd tam orta məktəbinin müəllimi Əfsanə Rəhimova 11 ildir müəllim işləyir. O, şagirdlərə elmi bilikləri öyrətməklə yanaşı, onların hərbi-vətənpərvərlik ruhunda böyüməsinə xüsusi diqqət yetirir, təhsildə yeni yanaşmalara böyük yer verir.***



***Lerik rayonunun ərazisi tarixi, mədəniyyət və arxoloji abidələrlə zəngindir. İndi rayonun kəndlərində plastik sənət əsərlərinin gözəl nümunəsi olan daş-qoç heykəllərinə rast gəlmək olar. Şəkildə gördüyünüz daş-qoç heykəlinin üzərində müxtəlif epiqrafiq işarələr təsvir olunmuşdur. Təssüf ki, bu qiymətli abidələrə baxımsız münasibət göstərilir, sındırılır, sıradan çıxarılır.***

# Xətai Sənət Mərkəzində "Unudulmaz dərdimiz Qarabağ" adlı sərgi açılacaq




Fevralın 24-də Bakı Xətai Sənət Mərkəzində "Unudulmaz dərdimiz Qarabağ" adlı rəsm sərgisi açılacaq. Sərgi Azərbaycan Rəssamlar İttifaqı, Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyi, "Ziya" İnsan Hüquqlarının Müdafiə Mərkəzi və Xətai Sənət Mərkəzinin dəstəyi ilə reallaşacaq.

Bu barədə sərginin təşkilatçısı, gənc rəssam Aygün İsgəndərova məlumat verib. Onun sözlərinə görə, sərgidə 100-dən çox rəssamın təsviri və tətbiqi sənətin bütün növləri üzrə 150-dən artıq işi nümayiş olunacaq. Tədbirdə müxtəlif yaş qruplarında rəssamlar və dekorativ sənət ustaları iştirak edəcəklər.

# "Kitabi-Dədə Qorqud" dastanının Vatikan nüsxəsi çapa hazırlanır




Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi "Kitabi-Dədə Qorqud" dastanının Vatikan nüsxəsi "XAN" nəşriyyatının "Milli ədəbiyyat" silsiləsində çap olunacaq.

Nəşriyyatdan bildiriblər ki, İtaliyanın Vatikan kitabxanasında qorunan dastanın bu nüsxəsi XVI əsrin birinci yarısında üzü köçürülüb və bir müqəddimə, altı boydan ibarətdir. "Hekayəti-Oğuznameyi-Qazan bəg və ğəyri" adlanan bu nüsxə ilk dəfə əski əlifbadan müasir əlifbaya çevrilərək Azərbaycan oxucusuna təqdim ediləcək. Abidəni transliterasiya edən, "Ön söz", qeydlər və şərhlərin müəllifi filologiya elmləri doktoru, professor Tərlan Quliyev, elmi redaktoru filologiya elmləri doktoru, professor Füzuli Bayat, naşiri filologiya üzrə fəlsəfə doktoru, dosent Şəmil Sadiqdir.

Kitab Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası Elmi Şurasının qərarı əsasında çapa hazırlanır.

## Allah rəhmət eləsin!

Lerik Rayon İcra Hakimiyyətinin aparat işçiləri Mahmud Zahidova əzizi

**Əsməgül xanımın**

vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlı verirlər.

## Rəhbərim

*Ürəkdən vətəninə, xalqına bağlanan, bütün qüvvəsini Azərbaycanımızın çiçəklənməsinə həsr edən əziz rəhbərim Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının yorulmaz fəaliyyətinə həsr edirəm.*

Ürəkdə iz salan məhəbbətin var,
Hər kənddə, şəhərdə çox zəhmətin var.
Sizinlə fəxr edir azad, şən diyar,
Zəhməti nur saçan rəhbərim mənim.

Zəhmətlə bəzədin ölkəmizi sən,
Yurdumu ucaltdın, tanıtdırdın sən.
Gərgin zəhmətinə xalq deyir əhsən,
Yoxdur bərabərin, rəhbərim mənim.

Siz olan ölkədə nə kədər, nə qəm,
Halal zəhəmətinlə dirçəldi ölkəm.
İnamla sabaha qoyuruq qədəm,
Xalqına buğlanan rəhbərim mənim.

Çətin pillələri aramla aşdın,
Ən çətin işlərə özün qarışdın.
Xoş həyat naminə daim çalışdın,
Xalqından güc alan rəhbərim mənim.

Xəyalı çevirdin sən gerçəkliyə,
Həyata keçirdin neçə layihə.
Dünya həsrət qalıb bu yeniliyə,
Yurduna bağlanan rəhbərim mənim.

Qitədən-qitəyə yeni yol açdın,
Günəş tək cahana nur, işıq saçdın.
Uzaq ölkələrə təzə yol açdın,
Hər qəlbdə yerin var, rəhəbərim mənim.

Əməyin parlayır kənddə, şəhərdə,
Vətəndir amalın hər bir səfərdə.
Dosta köməkçisən, arxasan mərdə,
Xalqına bağlan rəhbərim mənim.

Ölkədə yaratdın ərzaq bolluğu,
Aradan götürdün sən yoxsulluğu.
İnsanın insanla möhkəm dostluğu,
Zəhmətlə yaratdın, rəhbərim mənim.

Sizin zəhmətilə ölkə yüksəlir,
İl-ildən uğurlu, xoş, barlı gəlir.
Xalqın güzəranı daim yüksəlir,
Xalqından güc alan rəhbərim mənim

## Zəhmətlə ucaldı

*Azərbaycan Respublikasının vitse prezidenti Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyətinə həsr edirəm.*

Hər söü bir həyat duyan insana,
Tanrı vergisidir Azərbaycana.
Örnək, nümunədir, bütün cahana,
Qeyrət qalasıdır Mehriban ana.

Uca bir zirvədir o yer üzündə,
Doğmadır, əzizdir, xalqın gözündə.
Yaşamaq, inam var hər bir sözündə,
Xalqına bağlıdır Mehriban ana.

O, işə başladı ən çətin anda,
Ölkə bünövrədən tam qurulanda.
Vətəndə yoxsulluq peyda olanda,
Şən həyat yaratdı Azərbaycanda.

Dünyada hamıya oldu nümunə,
Zülmətdən yol açdı işıqlı günə.
Xalqını çıxartdı firavan günə,
Ölkəni dirçətdi, ucaldı ana.

Şirin yuxusuna o haram qatdı,
Ən çətin anlarda köməyə çatdı.
Halal zəhmətilə ucaldı, qalxdı,
Yoxsul arxasıza arxadır ana.

Zəhməti parladı, gur işıq saçdı,
Ölkədə bağçalar, məktəblər açdı.
Körpə evləri tikdirdi, yollar da açdı,
Yurdumun simasın dəyişdi ana.

Daim saf qəlbindən arzular axdı,
Hamıya, hər kəsə doğma tək baxdı.
Halal zəhmətilə zirvəyə qalxdı,
Zəhmətlə ucaldı Mehriban ana.

***Lerik rayonu, Bradi kəndi***
***Muradəli Hüseynov***

# Qəribənin taleyi

Taleyi elə gətirib ki, Qəribə Ələsgərova ömrünün son illərində Lerik rayonunun Nuravud, Buruq, Rvarud kənd məktəblərində müəllim işləyib, yerli əhali ilə yaxşı ünsiyyətdə olub, dağ adamlarının adət və ənənələrini bəyənib. Sözün əsl mənasında Qəribə qəriblik taleyini yaşasa da, özünü tənha hiss etmir, hamı ona hörmətlə yanaşırdı. O, Buruq kəndində olarkən xəstələnib, müalicə olunmaq üçün Lerik RMX-na gətirilib. Lakin tənhalıq, çəkdiyi iztirablar ömrünə xal salmşdı, vəfat edəcəyini duymuşdu.

Lerik rayon təhsil şöbəsinin müdiri Zöhrab Salayev deyir:

- Mən həyat yoldaşımla Qəribə Ələsgərovaya baş çəkməyə getmişdik. Onun səhhəti yaxşı deyildi. Ürək-dirək verdik, fikirləşdik ki, qoy yaşamağa ümidini itirməsin...

Birdən o yoldaşıma dedi:

- Əgər mən ölsəm, məni Rvarud kəndində dəfn edin. Çünki mənim sizdən mənə yaxın adamım yoxdur. Mənim yaxınlarım elə sizsiniz...

Bu sözlər Zöhrab müəllimi xeyli mütəəssir etdi. Sən demə, Qəribə Ələsgərova olacaqları duyurmuş. O, bu işıqlı həyatı qəm-kədərlə, iztirablarla, tək-tənha tərk etdi. Zöhrab müəllimi Qəribənin son vəsiyyətinə əməl etdi. Mərhuməni Rvarud kənd camaatı ehtiramla torpağa tapşırdı, ruhuna yasin, dualar tapşırıldı.

Lerik Rayon İcra Hakimiyyəti, Rvarud və Buruq kənd orta məktəbləri rəhbərliyinin təşkilatçılığı ilə Lerikdəki mərasim evində əhalinin müxtəlif nümayəndələrinin iştirakı ilə üç mərasimi keçirilmiş, Quran tapşırılmış, ehsan verilmişdir.

**Allah rəhmət eləsin.**

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
H/№AZ05AIIB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır.

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Tiraj: 500
Sifariş: 466

